***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PROBLEMS of PEDAGOGY***

*UOT 371*

***Xurşud Cəlil qızı İsmayilova***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Azərbaycan dili kafedrasının baş müəllimi*
*ORCID-0000-0001-5171-0166*
https://doi.org/10.69682/azrt.2024.91(1).23-26

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ

***Хуршуд Джалил гызы Исмайлова***
*преподаватель кафедры Азербайджанского языка*
*Азербайджанского Государственного Экономического Университета*

## ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

***Khurshud Jalil Ismayilova***
*lecturer of the Azerbaijani language at the*
*Azerbaijan State Economic University*

## HEYDAR ALIYEV AND THE AZERBAIJANI LANGUAGE

**Xülasə.** Hər bir xalqın ana dili onun varlığının ən başlıca göstəricisi, özünütəsdiqidir. Ana dili xalqın, millətin özünəməxsusluğunu, tarixi keçmişi və mədəniyyətini, zəngin söz xəzinəsini, inanc və ənənələrini, əxlaqi davranışları və dünyagörüşünü özündə daşıyan, əsrlərdən-əsrlərə çatdıran əvəzsiz milli sərvətdir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə dediyi kimi, “xalqı xalq edən, milləti millət edən onun ana dilidir”. Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin hazırda dünya dilləri sırasında özünəməxsus yeri, necə deyərlər, imzalar içərisində imzası vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, “Ana dilimiz öz imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik quruluşunun sabitliyi ilə səciyyələnir.
***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan dili, mədəniyyət*

**Резюме.** Родной язык каждой нации является важнейшим показателем ее существования, самоутверждения. Родной язык – незаменимое национальное достояние, которое несет в себе самобытность народа, нации, ее исторического прошлого и культуры, ее богатый словарный запас, верования и традиции, моральное поведение и мировоззрение и передает их из века в век. Как мудро сказал общенациональный лидер азербайджанского народа Гейдар Алиев, «то, что делает народ нацией, то, что делает нацию нацией, – это ее родной язык». Азербайджанский язык, государственный язык Азербайджанской Республики, в настоящее время занимает уникальное место среди мировых языков, как говорится, подпись среди подписей. По словам Президента Азербайджанской Республики господина Ильхама Алиева: «Наш родной язык отличается богатством своих возможностей, беглостью звуковой структуры и устойчивостью грамматической структуры.
***Ключевые слова:*** *Гейдар Алиев, азербайджанский язык, культура.*

**Summary.** The mother tongue of every nation is the most important indicator of its existence, self-affirmation. The mother tongue is an irreplaceable national treasure that carries the uniqueness of the people, the nation, its historical background and culture, its rich vocabulary, beliefs and traditions, moral behavior and outlook, and transmits it from century to century. As Heydar Aliyev, the national leader of the Azerbaijani people, wisely said, "what makes a people a nation, what makes a nation a nation is its mother tongue." The Azerbaijani language, the state language of the Republic of Azerbaijan, currently has a unique

place among world languages, as they say, a signature among signatures. In the words of the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev, "Our mother tongue is characterized by the richness of its possibilities, the fluency of the sound structure and the stability of the grammatical structure".

***Keywords**: Heydar Aliyev, Azerbaijani language, culture*

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanını Heydər Əliyevin uğurlu dil siyasətinin fundamental yekun sənədi adlandırmaq olar. Dilimizin ən qədim tarixinə obyektiv elmi-tarixi qiymət verən, Azərbaycan dilinin türk köklü müstəqil dil olmasını bir daha təsdiqləyən, onun əsas təkamül mərhələlərini, inkişaf yollarını dahiyanə bir müdrikliklə, elmi-nəzəri əsaslarla izləyərək son söz deyən, rəsmi dövlət münasibəti bildirən bu fundamental tarixi sənəd Ulu öndər Heydər Əliyevin dil siyasətinin uğurlar miqyasını daha da genişləndirdi. Müstəqilliyini təzəcə qazanmış Azərbaycan 1992-ci ildə faciəli günlər yaşayır, sosial-siyasi burulğanlar, dərəbəylik və anarxiya məngənəsində sıxılırdı. Cəmiyyətin həqiqi milli liderə, əsl rəhbərə, müdrik yolgöstərənə ehtiyacı vardı. Azərbaycanın 91 nəfər görkəmli ziyalısı, alimi, sənətkarı bir araya gələrək dünya miqyaslı liderə – xalqın yeganə ümidi, pənahı, xilaskarı Heydər Əliyevə üz tutdu. Bu təkcə 91 nəfər ziyalının yox, əslində, bütün xalqın dar ayaqda ümidi, tələbi, xahişi, təkidli çağırışı idi. Bu, bütün həyatını xalqına, onun əbədi azadlığına, milli müstəqilliyinə həsr edən fədakar bir insanın, artıq dünya miqyasında tanınan, etiraf və qəbul olunan regional-praqmatik bir siyasətçinin mövqeyi, missiyasıdır. İstər ABŞ-da nüfuzlu siyasət, politologiya dairələrindəki çoxsaylı görüşləri, istər Avropa Şurasındakı gərgin, cəsarətli, qalib fəaliyyəti Onu dünya miqyasında yeni, çox böyük perspektivləri olan siyasət və dövlət adamı, milli lider kimi tanıtmışdır. Dahi xilaskar Heydər Əliyevin həyat, hakimiyyət, siyasət, diplomatiya universitetlərini uğurla bitirən, Heydər Əliyev ideyalarının xilaskarlıq qüdrəti ilə, tükənməz Azərbaycan sevgisilə silahlanan İlham Əliyev sabahlarımızın ən ümidverici, ən real, əsl ümumxalq sevgisi qazanan lideridir. (1)

Azərbaycan ədəbi və xalq danışıq dilini dərindən bilən, bu dilin zəngin lüğət tərkibinə yaxşı bələd olan və qrammatik imkanlarından fitri istedadı sahəsində səmərəli istifadə etməyi bacaran Heydər Əliyev yüksək səviyyəli yığıncaqlarda, məsələn, BDU-nun 50 illiyinə həsr olunmuş yubiley toplantısında, yüksək dövlət səviyyəsində aparılan başqa müşavirələrdə ana dilində parlaq çıxışlar edərək, özünə böyük hörmət və məhəbbət qazanmışdır. O çox yaxşı bilirdi ki, onun qazandığı bu böyük hörmət və məhəbbət, eyni zamanda, onun istifadə etdiyi, danışdığı dilə – Azərbaycan dilinə çox böyük hörmət və məhəbbət yaradır.

1970-ci illərin ortalarından başlayaraq SSRİ-yə daxil olan respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirilmişdir. Rus dilinin hüquqlarının genişləndirilməsi ilə əlaqədar "vahid dil" siyasəti daha geniş şəkildə təbliğ olunurdu. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq çox riskli və qorxulu idi. Dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Çünki bu, onlardan ötrü tale məsələsi ola bilərdi. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdi. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü.

1977-1978-ci illər respublika rəhbərini çətinliklər qarşısında qoydu. Məlum olduğu kimi, 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edildi. Həmin Konstitusiya bütün respublikalarda hazırlanan yeni konstitusiyalar üçün baza rolunu oynamalı idi və faktiki olaraq oynayırdı. Həmin Konstitusiyada isə elə əvvəldən dövlət dili haqqında maddə yox idi. Ayrı-ayrı respublikalarda qəbul edilmiş konstitusiyaların heç birində həmin maddə öz əksini tapmamışdı.

Azərbaycanda isə vəziyyət başqa cür idi. Heydər Əliyev ana dilinin dövlət dili olması uğrunda mübarizəsini davam etdirirdi. De-fakto

dövlət dili uğrunda ardıcıl mübarizə aparan respublika rəhbəri həmin dilin Konstitusiyada qeyd olunmamasına dözə bilməzdi. Respublikanın rəhbəri ziyalıları, bütün xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvəsi ilə mübarizə aparmış, bütün çətinliklərə və maneələrə böyük hünərlə sinə gərmişdi. (3, s. 14)

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir."

Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra hakimiyyətə gələn naşı və səriştəsiz şəxslərin idarəetmədəki təcrübəsizliyi müstəqilliyimizi uçuruma aparır, ölkəni məhvə sürükləyirdi. AXC-Müsavat hakimiyyəti dövründə bu uçurum özünü daha qabarıq şəkildə büruzə vermişdir. Onlar heç bir məntiqi əsasa söykənmədən dövlət dilinin adının dəyişdirilməsini və "türk dili" adlandırılmasını təklif edirdilər. (4)

Uzun mübahisələrdən sonra AXC-Müsavat hakimiyyəti xalqın rəyini nəzərə almadan, referendum keçirmədən 1992-ci ilin dekabrında "Dövlət dili haqqında" Qanunu "müzakirə" edərək Azərbaycanda dövlət dilinin "Türk dili" olması barədə qərar qəbul etmişdir. Hətta təcili olaraq ana dili dərsliklərini "Türk dili" adlı dərsliklərlə əvəzləyərək çapını da həyata keçirmişdir.

Dövlət idarəçiliyində zəngin təcrübəsi olan ulu öndər Heydər Əliyev sonralar bu məsələyə münasibət bildirərkən Milli Məclisin qəbul etdiyi bu qərarı kəskin pisləyərək demişdi: "Bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır".

Xalqın təkidli tələbi və xahişi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm yetirən ümummilli lider ana dilimizin - Azərbaycan dilinin adını özümüzə qaytarmışdır. (1)

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Bu təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdir. Bir-birinin ardınca fərmanlar imzalanmış, qanunlar qəbul edilmişdir.

Ana dilinə həmişə xüsusi diqqətlə yanaşan, dilimizin dərin bilicisi ulu öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır.

Fərmanda dilimizin öz tarixi inkişafı boyu əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sahəsində yaranmış problemlər də geniş təhlil edilmiş və həmin problemlərin həlli yolları göstərilmişdir. Tarixi əhəmiyyət kəsb edən bu sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. Həmin Fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdır. Dünyanın heç bir dövlətində analoqu olmayan belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı.

Ümummilli Liderin çıxışlarında dil siyasəti, dil quruculuğu, dil mədəniyyəti, yazı və əlifba məsələlərinin dərin məntiqi mühakimələrlə əsaslandırıldığı, ana dilinin statusunun təminatı və tətbiqinin təkmilləşdirilməsi ilə bağlı yeni – "Dövlət dilinin tətbiqi işinin təkmilləşdiril-

məsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanın verilməsi respublikamızda ana dilinə – dövlət dilinə böyük əhəmiyyət verildiyinin sübutudur.

**Problemin aktuallığı və praktik əhəmiyyəti**. Azərbaycan Respublikasında dil siyasətinin möhkəm əsaslar üzərində formalaşdırılması, Azərbaycan dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək beynəlxalq aləmdə nüfuzunun artması bilavasitə Ulu öndərin adı ilə bağlıdır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin böyük önəm verdiyi dil siyasəti onun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Ulu öndərin siyasi kursunu yeni şəraitin tələblərinə uyğun şəkildə yaradıcılıqla inkişaf etdirən İlham Əliyevin bu sahədəki ilk sərəncamlarından biri Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi ilə bağlıdır. Ölkə Prezidentinin 12 yanvar 2004-cü il tarixli bu sərəncamına əsasən, dövlət müstəqilliyinin başlıca rəmzlərindən biri sayılan ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək məqsədilə Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələrinin latın qrafikası ilə yenidən nəşri kütləvi şəkildə həyata keçirilmişdir. Bundan əlavə, İlham Əliyevin 2004-cü il 27 dekabr tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunaraq ölkədəki bütün kitabxana şəbəkəsinə hədiyyə edilmişdir.

**Problemin elmi yeniliyi**. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir". Tarixin müxtəlif dönəmlərində ölkəmizin ayrı-ayrı imperiyalar tərkibində olmasına baxmayaraq, Azərbaycan dili öz varlığını və özəlliyini qoruyub saxlamış, tarixin amansız və sərt sınaqlarından üzüağ, şərəflə çıxmış, zaman-zaman cilalanaraq saflaşmışdır.

**Ədəbiyyat:**


1. Əhmədova, S. Heydər Əliyevin dil siyasəti / Elmi red.: N. Cəfərov. – Azərbaycanda Atatürk Mərkəzi. – Bakı: MBM, – 2018. – 95 s.
2. Əliyev, V. Heydər Əliyevin dil siyasəti / Elmi red.: N. Cəfərov. – Bakı: Nurlan, – 2013. – 100 s.
3. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı / Red.: B. Nəbiyev. – Bakı: Elm, 2008. – 178 s.
4. Məhərrəmqızı, A. Dil quruculuğunun yeni mərhələsi: Söz yaradıcılığı / Elmi red.: A. Axundov (təkmilləşdirilmiş II nəşri).– Bakı: Azərbaycan, – 2014.–102 s.
5. Seyidov, Y. Heydər Əliyev rəsmi səviyyədə ilk dəfə Azərbaycan dilində çıxışı ADU-da (BDU) etdi / Müsahibəni apardı V. Rzayeva // Yeni Azərbaycan. – 2000. – 28 yanvar.
6. Xudiyev, N. Azərbaycan ədəbi dilinin təşəkkülü: Dərs vəsaiti. / N. Xudiyev. – Bakı: N. Tusi adına ADPU-nun nəşri, – 1991. – 151 s.


**E-mail:** ismayılova@mail.ru

**Rəyçilər:** *fəls.elm.dok.* **G.Ə. Səfərli,**
*dos.* **S.H. Cabbarlı**
**Redaksiyaya daxil olub:** 23.02.2022